**Təsdiq edirəm:**

**Rektor: ____________________ prof. N.İbrahimov**

**"05" yanvar 2023-cü il**

# LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİNİN KEYFİYYƏT TƏMİNATI SİYASƏTİ

Lənkəran Dövlət Universitetinin Elmi Şurasının 26 dekabr 2022-ci il tarixli protokol №4 iclasında qəbul olunmuşdur.

**Lənkəran – 2023**

## Mündəricat


Giriş ........ 2

Fəaliyyətlərin təşkili və idarəetmədə keyfiyyət ........ 2

Keyfiyyətli təhsil təminatı ........ 5

Resursların idarə edilməsi ........ 7

Təhsil və tədqiqatlara dəstək olan bilik resurslarının idarə edilməsi ........ 8

Keyfiyyət mədəniyyəti və keyfiyyətin yaxşılaşdırılması ........ 9

Keyfiyyətin idarəedilməsi təcrübəsi ........ 9

İzləniləcək keyfiyyət indikatorları ........ 10

İctimaiyyətin məlumatlandırılması ........ 11

Sahələr üzrə fəaliyyətləri tənzimləyən siyasətlər ........ 12

Yekun ........ 12

# GİRİŞ

Lənkəran Dövlət Universitetinin Keyfiyyət Təminatı Siyasəti *(bundan sonra-* KTS*)* Azərbaycan dövlətinin təhsil siyasəti və cəmiyyətin inkişaf perspektivləri nəzərə alınmaqla, ali təhsilin yüksək səviyyədə təşkili və beynəlxalq rəqabətliliyin artırılması yolu ilə əmək bazarının tələblərinə uyğun, yaradıcı, yüksək ixtisaslı kadr və mütəxəssislərin hazırlanmasından ibarətdir.

KTS Lənkəran Dövlət Universitetinin Strateji İnkişaf Planı istiqamətlərinə uyğun olmaqla təhsilin keyfiyyətinin təmin olunmasına və fasiləsiz inkişafına yönəlmişdir. KTS LDU-da həyata keçirilən fəaliyyətlərin Boloniya təhsil prosesinin müddəalarına, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nə, "Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və qaydalar"a, dövlətin bu sahədəki digər müvafiq sənədlərinə və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin normativ hüquqi aktlarına əsaslanır.

Hazırlanmış KTS sənədi LDU-da bütün bölmələr, şöbələr, kollegial qurumlar və rəhbər şəxslər üçün etibarlı olan əsas meyardır. Müxtəlif strukturlarda Keyfiyyət Siyasətinin necə yerinə yetiriləcəyi metodologiyasının fərqli olmasını nəzərə alaraq, hər bir struktur mövcud keyfiyyət siyasətinə uyğun olaraq, bu sənəddə göstərilən keyfiyyət tələbinin davamlı və dayanıqlı olması üçün görüləcək işləri müəyyənləşdirməlidir. Ali təhsil müəssisəsinin əməkdaşları KTS barədə məlumatlı olmalıdırlar.

## Fəaliyyətlərin təşkili və idarəetmədə keyfiyyət

KTS LDU-nun bütün fakültə, şöbə və mərkəzlərində keyfiyyət idarəetmə sisteminin strukturlaşdırılması və idarəedilməsi zamanı Azərbaycan dövlətinin təhsil siyasəti və müasir keyfiyyətin idarəedilməsi anlayışına əsaslanır və bütün əməkdaşlar tərəfindən qəbul edilən əsas elementləri izah edərək keyfiyyət mədəniyyətinin formalaşmasına təkanverir.

KTS LDU daxilində müxtəlif fakültə, şöbə və mərkəzlərində idarəetmə funksiyalarını yerinə yetirərkən qərarların qəbulu, məsləhətləşmə, təsdiq və monitorinq proseslərini izah edir, təhsilalanların ehtiyaclarına uyğun olaraq hazırlanmış standart təhsil proqramının keyfiyyətli icrasını təmin etmək üçün təhsil fəaliyyətlərində iştirak edən müxtəlif struktur bölmələr arasında əlaqə, əməkdaşlıq və koordinasiyanın müntəzəm və davamlı mövcudluğunu ehtiva edir. Müvafiq struktur bölmə rəhbərlərinin birgə fəaliyyətləri nəticəsində təlim-tədris və tədqiqat fəaliyyətləri arasında əməkdaşlıq və koordinasiyanı dəstəkləyir və gücləndirir. Bunun üçün mütəmadi iclaslar, görüşlər və birgə fəaliyyətlər həyata keçirilir. Bütün struktur bölmələr öz fəaliyyətlərini LDU-nun Strateji İnkişaf Proqram missiyasına və hədəflərinə nail olmaq üçün tələb olunan fəaliyyətlərə uyğun olaraq proqnozlaşdırır və həyata keçirir. Bu proqramdan irəli gələn missiya və istiqamətlərə müvafiq olaraq həyata keçirilən tədbirlərin səmərəliliyi hesabatlar və monitorinq məlumatları əsasında qiymətləndirilir və zərurət olduğu zaman ona uyğun müvafiq qərarlar verilir. Əldə olunan nəticə və təkmilləşdirmənin davamlı olmasına mütəmadi nəzarət olunur.

LDU-nun əsas məqsəd və vəzifələri olan təlim-tədris, eləcə də, tədqiqat fəaliyyətlərinin inkişaf etdirilməsi, keyfiyyətin yüksəldilməsi üçün lazım olan akademik və inzibati heyətin, infrastrukturun, avadanlıqların, digər zəruri obyektlərin müəyyən edilməsi üçün LDU rəhbərliyi ilə struktur rəhbərləri arasında mütəmadi görüşlər təşkil olunur.

LDU-nun missiyasına, məqsəd və vəzifələrinə uyğun prioritetlər rəhbərlik və struktur rəhbərlərinin birgə iştirakı ilə müəyyən edilir. Müəyyən olunmuş prioritetlərə uyğun fəaliyyət göstərmək və keyfiyyətin yüksəldilməsi üçün lazım olan resurslar rəhbərlik tərəfindən təmin olunur. Lazım olan resursların təmin olunması və bölüşdürülməsindəki əsas müəyyənedici amil fəaliyyətlərin ölçmə və qiymətləndirilməsinin nəticələridir. Hər bir əməkdaşın vəzifə təlimatları var və bu təlimatlar onların vəzifələrini, səlahiyyətlərini, məsuliyyətlərini müəyyən etmək üçün

hazırlanır və müntəzəm olaraq yenilənir. Əməkdaşların bilik və bacarıqlarını qorumaq, onlardan tələb olunan kompetensiyaları saxlamaq üçün uyğun ehtiyaclar müəyyən edilir. Əməkdaşlar lazımi ixtisasartırma, peşəkar inkişaf təlimlərinə və ya digər bu kimi fəaliyyətlərə cəlb olunurlar.

Struktur bölmələr tərəfindən Strateji İnkişaf Proqramına uyğun olaraq gələcək fəaliyyətləri həyata keçirəcək işçi heyətin planlaşdırılması aparılır. Strateji İnkişaf Proqram göstərilən hədəf və məqsədlərdən asılı olaraq struktur və bölmələrdə ehtimal olunan dəyişikliklər, iş yükləri əsasında LDU-da kadr planlaşdırılması aparılır. Aydındır ki, tədris, təlim və tədqiqata cavabdeh olan işçi heyət vəzifə səlahiyyətlərini yerinə yetirmək üçün yetərli bilik və bacarıqlara sahib olmalıdır. LDU bu bacarıqları dəstəkləmək üçün struktur bölmələri müvafiq resurslarla təmin edir.

LDU-da işəgötürmə prosesi şəffaf və öncədən müəyyən olunmuş kompetensiya meyarları əsasında aparılır. Akademik heyətin fəaliyyətinin qiymətləndirilməsi öncədən LDU-nun hədəflərinə uyğun olaraq müəyyənləşdirilmiş meyarlar əsasında mütəmadi olaraq aparılır. İnzibati kadrların vəzifəyə təyin olunması və ya vəzifədən kənarlaşdırılması onların vəzifə təlimatlarında müəyyən edilmiş əsas fəaliyyət göstəricilərinin icra olunma vəziyyətinin qiymətləndirilməsinə müvafiq olaraq aparılır. Eləcə də, LDU tərəfindən mütəmadi olaraq inzibati və akademik heyətin (tədris köməkçi heyət daxil olmaqla) gördükləri işlərin səmərəliliyinin artırılması və onların bilik və bacarıqlarının inkişaf etdirilməsi üçün tədbirlər görülür.

LDU-nun Strateji İnkişaf Proqramında qeyd olunan missiyasına, məqsəd və vəzifələrinə, o cümlədən strateji inkişaf prinsiplərinə uyğun olaraq digər müəssisə və təşkilatlarla əməkdaşlıq həyata keçirilir, həmçinin bu əməkdaşlığın səmərəliliyi davamlı olaraq qiymətləndirilir.

## Keyfiyyətli təhsil təminatı

Keyfiyyətli təhsil təminatı istiqaməti LDU-nun Strateji İnkişaf Proqramının tərkib elementidir və onun müvafiq fəaliyyətlərinin planlaşdırılması üçün əsas hesab olunur.

LDU-nun KTS-in əsas məqsədi peşəkar fəaliyyət sahələrinin müasirliyini və inkişafını qabaqcıl nailiyyətlər səviyyəsində təmin edə bilən, ölkədə və xaricdə rəqabətədavamlı məzunlar hazırlamaqdır.

Bu məqsədə nail olmanın təmin edilməsində təhsilin keyfiyyəti istiqamətində LDU-nun **vəzifələri**:

- Biliklərə əsaslanan cəmiyyətin ehtiyaclarının təmin edilməsi üçün kadr hazırlığının yeni sahələrinin açılması və tədris proqramlarının strukturunun və məzmununun təkmilləşdirilməsi, fasiləsiz və çoxpilləli təhsil sisteminin inkişafının təmini;
- Bilik və texnologiya transferi sahəsində innovativ inkişaf və təlim üçün infrastrukturun genişləndirilməsi;
- Məzun hazırlığının yüksək keyfiyyətinin əsası kimi multidisiplinar və fənlərarası fundamental və tətbiqi elmi tədqiqatların inkişafı;
- Bütün səviyyələrdə yüksək keyfiyyətli universitet təhsilinin əsası kimi aparıcı elmi və pedaqoji mühitin dəstəklənməsi və hərtərəfli inkişafa istiqamətlənməsi;
- Yerli və xarici ali təhsil müəssisələri və digər təşkilatlar çərçivəsində əməkdaşlığın genişləndirilməsi və gücləndirilməsi;
- Əsas işəgötürənlərlə qarşılıqlı əlaqənin genişləndirilməsi, onların tədris prosesinin məzmunu və formalarının müəyyənləşdirilməsinə və təhsil fəaliyyətinin maddi-texniki təminatına cəlb olunması;
- Müasir elmi və tədris avadanlığının əldə edilməsi və bununla bağlı infrastrukturun inkişaf etdirilməsi yolu ilə tədris prosesinin maddi-texniki bazasının möhkəmləndirilməsi;

- Təhsilalanların müstəqillik və liderlik keyfiyyətlərinin inkişafı, biliklərin daim yenilənməsinə ehtiyac, yüksək mədəniyyətli, sosial cəhətdən aktiv və ahəngdar inkişaf etmiş şəxsiyyətin formalaşdırılması;
- Dünya təhsilinin inkişaf tendensiyalarını və Boloniya prosesinin təcrübəsini nəzərə almaqla təhsilin yüksək keyfiyyətinə, kollektivdə keyfiyyət mədəniyyətinin formalaşmasına zəmanət verən müasir idarəetmə sisteminin işlənib hazırlanması.

**Akkreditasiya qiymətləndirilməsi zamanı müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılması və verilmiş tövsiyələrin icrasını həyata keçirərək Lənkəran Dövlət Universiteti:**

- Keyfiyyət meyarlarını nəzərə almaqla tədris prosesini təşkil edir, təhsilin keyfiyyətinə dair tədris-metodiki və digər normativ sənədləri hazırlayır və təkmilləşdirir. Yeni təhsil texnologiyalarından istifadə üçün maddi şəraiti təmin edir;
- Həm proqram, həm də institutsional akkreditasiya üçün müvafiq yerli təşkilatlara müraciət edir;
- Təhsilin keyfiyyətinin idarə edilməsi problemlərinə dair elmi-metodiki iclaslar keçirir;
- Tədris prosesini həyata keçirən elmi müəssisələr, işəgötürənlər və müəsissələrlə birbaşa eləcə də, əks əlaqənin təmin edilməsi mexanizmlərini formalaşdırır;
- LDU-nun laboratoriya və nümayiş mərkəzlərinin təcrübə bazalarını, maddi-texniki təchizatını təmin etmək və tədris prosesində birbaşa iştirak etmək, o cümlədən dərslərin keçirilməsi, tədris planlarının və proqramlarının işlənib hazırlanması üçün elmi müəssisələri, işəgötürənləri və digər müvafiq maraqlı tərəfləri cəlb edir;

▪ Tələbələri sistemli şəkildə elmi və praktik fəaliyyətə cəlb edir və onlarda təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılması üçün praktiki təlim formalarını işləyib hazırlayır. Tələbələrin yaradıcılıq potensialının üzə çıxarılmasına şərait yaradır, onlarda şəxsiyyətin özünü dərk etməsinə kömək edir;

▪ Təhsilin keyfiyyətinin öyrənilməsini təşkil edir və akademik heyətin elmi və pedaqoji qabiliyyətlərinin yüksəldilməsi sistemini təkmilləşdirir. LDU əməkdaşlarının təhsilin keyfiyyətinin yüksəldilməsinə marağını stimullaşdıran şərait yaradır;

▪ LDU məzunlarının işlə təmin olunması sahəsində əmək yarmarkaları təşkil edir və analitik-ekspert fəaliyyəti göstərir.

## Resursların idarə edilməsi

LDU-nun öz missiyasına uyğun olaraq yerinə yetirməli olduğu xidmətlərin keyfiyyətinə təsir edən mühüm amillərdən biri də bu xidmətlərin göstərilməsi zamanı istifadə olunan resursların (otaqlar, avadanlıqlar və materialların) keyfiyyətidir.

Bu, LDU əməkdaşlarının və təhsilalanların hərtərəfli təhlükəsizliyi ilə sıx bağlıdır. Bunu təmin etmək üçün LDU lazımi planları hazırlayır və həyata keçirir. Bu planlar aşağıda verilmişdir:

- Fövqəladə Hallar Planı;
- Yanğın təhlükəsizliyi və evakuasiya planı;
- Təhsil proqramının icrası və monitorinqi;
- Auditoriyalar, laboratoriyalar və s. məkanların baxım və təmir planları;
- Obyekt avadanlıqları (kondisioner, istilik sistemləri, enerji sistemləri və s.) baxım, təmir və monitorinq planı;
- İT infrastruktur avadanlıq və proqram təminatına baxım və yeniləmə planı;
- Təhlükəli maddələr və kimyəvi maddələr üçün təhlükəsizlik planı.

Bu planları hazırlamaq üçün ilk növbədə inventar tədqiqatı aparılır və bütün qurğu və avadanlıqlar uçota alınır. Qeydiyyat sistemi inventarlaşdırılan qurğu və avadanlıqların izləniləbilən olmasını təmin edir.

Planların həyata keçirilməsi prioritetləri, təxmini xərclər və resursların bölüşdürülməsi məsul bölmənin və rəhbərliyin birgə qərarı ilə müəyyən edilir. Müvafiq hallarda planlara həyata keçiriləcək təlimlər (evakuasiya məşğələləri, yanğın təhükəsizliyinə aid olan məşqlər və s.) də daxil edilir.

**Təhsil və tədqiqatlara dəstək olan bilik resurslarının idarə edilməsi**

LDU təhsilalanların onlara lazım olan bilik və bacarıqları əldə etməsi üçün zəruri olan resursların adekvatlığını və tədris proqramlarına uyğunluğunu təmin edir.

Tədris üçün məsul olan təlimatçılarla yanaşı, tələbələrin də onların öyrənmələrinə töhfə verəcək resursları asan əldə etmə imkanı yaradır. Bu resurslara kitabxanalar, labaratoriyalar, İKT resursları, internetdən istifadə imkanları, fiziki resursları nümunə göstərə bilərik.

LDU kitabxana və bölmələrindəki informasiya resurslarını və internetə çıxış imkanlarını təhsilalanların ehtiyac və gözləntilərinə uyğun şəkildə təşkil edir, onları tələbə və tədqiqatçıların istifadəsinə hazır vəziyyətdə saxlayır. LDU tərəfindən müntəzəm olaraq təlim və tədqiqat üçün ayrılmış resurslara nəzarət edilir və onlar təkmilləşdirilir.

LDU daxilində təhsil, təlim, təqdiqat və digər xidmət fəaliyyətləri üçün zəruri olan proseslərin hər bir struktur və bölmə əməkdaşları tərəfindən eyni formada və standart şəkildə yerinə yetirilməsi müəyyən edilir və təmin olunur. Bunun üçün lazım olan ümumi qaydalar, prinsiplər, zəruri olan prosedurlar və eləcə də məsul şəxslər müəyyən olunur. Müvafiq fənnlərin tədris proqramlarının, sillabuslarının hazırlanması, yenilənməsi, təsdiqi və icrası prosesləri maraqlı tərəflərin iştirakı ilə müəyyən edilir və idarə olunur. Tədris prosesində zəruri olan təlim nəticələri və ehtiyacları, təlim resursları, tələbələrin öyrənmə nəticələrini və inkişafını yoxlamaq üçün müvafiq monitorinq üsulları nəzərə

alınır. Tələbələrin məzun olma prosesi, LDU-dan kənarlaşdırma və müvafiq (diplom, arayış, transkript və s.) sənədlərin verilməsi prosesləri müəyyən olunmuş qaydalarla tənzimlənərək həyata keçirilir. Tədqiqat və elmi işlər LDU-nun strateji hədəflərinə və məqsədlərinə uyğun olaraq planlaşdırılır və lazımi dəstək prosedurları formalaşdırılır. Bu proseslərin icrası və monitorinqi üçün zəruri prosedurlar müəyyən olunur və nəzarət mexanizmi müəyyənləşdirilir. Proseslərdə resurslardan səmərəli istifadə olunması üçün nəzarət mexanizmi formalaşdırılır. Tələbələrə, əməkdaşlara və eləcə də, cəmiyyətə göstərilən xidmətlərlə bağlı proseslər müəyyən edilir və idarə olunur. Prosesin icrasına müvafiq bölmə tərəfindən nəzarət edilir. Zəruri hallarda təkmilləşdirmə tədbirləri həyata keçirilir. Təkmilləşdirmə fəaliyyətlərində keyfiyyətin yaxşılaşdırılması və inkişafının əsas prinsiplərindən istifadə olunur. Bu proseslərin təkmilləşdirilməsi və inkişaf etdirilməsi zamanı daxili və xarici maraqlı tərəflərin gözləntiləri və rəyləri nəzərə alınır.

## Keyfiyyət mədəniyyəti və keyfiyyətin yaxşılaşdırılması

LDU keyfiyyət mədəniyyətinin yüksəldilməsi istiqamətində fəaliyyətini davam etdirir. LDU keyfiyyətin təkmilləşdirilməsi tədqiqatlarını bütün bölmələrində və bütün əməkdaşlar tərəfindən həyata keçirilməli olan bir fəaliyyət kimi qəbul edir. Müvafiq aidiyyəti struktur bölmələrin rəhbərliyi altında Universitetdə keyfiyyət mədəniyyətinin yayılması üçün səylər göstərilir. Bu məqsədlə akademik və inzibati heyətin keyfiyyətinin yüksəldilməsi, idarə edilməsi ilə bağlı məlumatlandırılması üçün təlimlər təşkil edilir və həyata keçirilir. İşçilərin vəzifə keyfiyyətinin artırılması fəaliyyətlərində iştirakı dəstəklənir və həvəsləndirilir.

## Keyfiyyətin idarəedilməsi təcrübəsi

*Planlaşdır-Tətbiq et Yoxla-Tədbir gör* (PTYT) anlayışı LDU-da Keyfiyyət İdarəetmə təcrübələrinin əsasını təşkil edir.

PTYT tsikli çərçivəsində:

- Bütün təkmilləşdirmə tədbirləri planlaşdırılır. Bu planlarda mövcud vəziyyət, əldə olan məlumatlar qiymətləndirilir və həyata keçiriləcək fəaliyyətlərdən sonra əldə olunacaq nəticə ilə bağlı hədəflər müəyyən edilir;

- Təkmilləşdirmə üçün tövsiyələr əsas problemi tapmaq üçün təhlillərin nəticələrinə əsaslanır. Bu təhlillər ən müasir məlumat və metodlardan istifadə etməklə aparılır. Lazım olduqda müvafiq təlimatlardan da istifadə olunur;

- Planlaşdırılan təkmilləşdirmə xüsusilə yüksək riskli, yüksək həcmli proseslərə aiddirsə, tətbiq seçilmiş pilot bölmələrdən başlayır və təsiri müşahidə edildikdən sonra genişləndirilir;

-Tətbiqin təsirləri qiymətləndirilir və ilkin məlumatlarla icradan sonrakı məlumatlar müqayisə edilərək yoxlanılır. Gözlənilən məqsədə çatma vəziyyəti qiymətləndirilir. Buna nail olunmazsa, lazımi tədbirlər görülür və yeniləmələr aparılır

- Məlumatlar vaxtaşırı yenidən qiymətləndirilir və əldə edilən təkmilləşdirmənin davamlı və dayanıqlı təsirə malik olub-olmadığına nəzarət edilir;

Bütün proses və sistem dəyişiklikləri yuxarıda qeyd olunan əsas addımlar yerinə yetirilərək və həmin addımları qeyd etməklə həyata keçirilir. Güman və mülahizələr deyil, dəqiq məlumat və sübutlara əsaslanan rasional qərarvermə mexanizmləri tətbiq olunur.

**İzləniləcək keyfiyyət indikatorları**

LDU öz missiyasına əsasən istiqamətlər üzrə fəaliyyətini davamlı olaraq izləyir. Nəzarət ediləcək fəaliyyət və keyfiyyət göstəriciləri LDU-nun Elmi Şurası və rektoru tərəfindən müəyyən edilir. Nəzarət olunacaq göstəricinin müəyyən edilməsində istifadə olunan prioritetləşdirmə metodu yazılır.

Aşağıdakı sahələrdə monitorinqlər aparılır:

- *Tələbələrin inkişafı və müvəffəqiyyəti;*
- *Məzunların məşğulluğu;*

- *Proqramların qiymətləndirilməsi;*
- *Tədqiqatın keyfiyyəti;*
- *Nəşrlərin keyfiyyəti;*
- *Xidmətlərin keyfiyyəti;*
- *Maliyyə menecmenti;*
- *Resurslardan səmərəli istifadə;*
- *Tələbə məmnuniyyəti;*
- *Təlim ehtiyaclarının müəyyən olunması*
- *İşçi məmnuniyyəti;*

Monitorinq edilən fəaliyyət göstəricilərinin məlumatları səlahiyyətli şəxslər tərəfindən qiymətləndirilir və təhlil edilir.

LDU-da əvvəlki illərdə təqdim olunan məlumatlarla standartlar müqayisə edilir. Alınan nəticələrə uyğun olaraq zəruri tədbirlər planlaşdırılır.

**İctimaiyyətin məlumatlandırılması**

LDU-nun əsas fəaliyyət sahəsinə aid olan təhsil, tədqiqat, xidmətlər və bu xidmətlərin icrası haqqında ən müasir, qərəzsiz və obyektiv kəmiyyət və keyfiyyət məlumatları dərc edilir. İctimaiyyətin dərc edilmiş məlumatlara çıxışı təmin edilir. Eyni zamanda Təhsil haqqında qanunun müvafiq müddəalarına əsasən maraqlı tərəflərin aşağıda qeyd olunan sənədlərlə tanış olması üçün şərait yaradır:

1. LDU-nun Nizamnaməsi;
2. LDU-nun və təhsil proqramlarının akkreditasiya məlumatları (Yekun hesabat)
3. Təhsil müəssisəsinin strategiyası;
4. Keyfiyyət Təminatı Siyasəti.

**Sahələr üzrə fəaliyyətləri tənzimləyən siyasətlər**

LDU-da ayrı-ayrı sahələr üzrə aidiyyəti cavabdeh struktur bölmələri və ya kollegial qurumlar tərəfindən fəaliyyətlərin həyata keçirilməsi üçün hazırlanan və Strateji İnkişaf Proqramın müvafiq hədəflərini ehtiva edən siyasətlər (siyasət sənədləri) və uyğun digər

planlar, eyni zamanda daxili keyfiyyət koordinasiyasının qurulmasında və monitorinqinin aparılmasında xəritə-bələdçi funksiyasını yerinə yetirir.

Siyasət (Strategiya) sənədləri:

- Elmi-tədqiqat strategiyası
- Sosial Töhfə;
- Beynəlmiləlləşmə;
- İdarəetmə;
- İnformasiya İdarəetmə;
- İnsan Resursları;
- Maliyyə;
- Marketinq;
- Rəqəmsallaşma.

**Yekun**

Təcrübə və yaradıcılığı ilə təhsil, tədqiqat və texnologiyada qabaqcıl universitet olmağı hədəfləyən LDU fəaliyyətində *şəffaflıq və davamlı təkmilləşdirməyə* əsaslanan KTS müəyyən edir. Siyasətin əsasında hazırlanmış Tədbirlər planının icrasını KTŞ həyata keçirir və rüblük olaraq rektora və Elmi Şuraya hesabat verir.

1. Təhsilin dəyişikliyə, inkişafa və ehtiyaclara uyğun yenilənməsi universitetimizin qlobal səviyyədə rəqabət aparmasına şərait yaradılması, o cümlədən, bütün fəaliyyət sahələrində təklif etdiyi xidmətlərin keyfiyyəti ilə milli, eləcə də, beynəlxalq arenada rəqabətədavamlı Universitet olmağı hədəfləməsi;

2. Təhsilalanların öz istedad və səriştələrini inkişaf etdirmələri, unikal və innovativ yanaşmalar tətbiq etmələri üçün fənlərarası və beynəlxalq interaktiv təhsil və tədqiqatların dəstəklənməsi;

3. LDU-nun akademik heyətə tədqiqat və inkişaf sahəsində bərabər imkanlar təqdim etməsi;

4. İxtisaslaşma və müxtəliflik prinsipləri çərçivəsində qlobal səviyyədə rəqabətin aparılmasına şəraitin yaradılması;

5. Ali təhsilin magistratura və doktorantura səviyyələrində dayanıqlı inkişaf kontekstində yanaşmaya nail olunma və Azərbaycanda, eləcə də, regionlarda elmi-pedaqoji kadrlara tələbatın ödənilməsi, doktorantura səviyyəsində təhsil və tədqiqatın keyfiyyətinin və səmərəliliyinin daim artırılması;

6. Daxili və xarici nəzarət mexanizmlərinin davamlılığını dəstəkləyən keyfiyyət idarəetmə sisteminin yaradılması, tətbiqi və dayanıqlığının təminatı;

7. Keyfiyyət mədəniyyətinin yayılması üçün təlimlər və müxtəlif maarifləndirmə tədbirlərinin həyata keçirilməsi;

8. Yüksək texnologiyalı sənayeni dəstəkləyən tədqiqatların keyfiyyətli tədrisin, yenilikçiliyin və təşəbbüsün əsası kimi təşviqi;

9. Sənayenin gözləntilərinin düzgün müəyyən olunması üçün məzunlarla "əks əlaqə" işinin ətraflı qurulması vasitəsilə tədris işinin təşkilinə töhfə verilməsi;

10. Ölçmə və qiymətləndirmə metodlarından əldə edilmiş nəticələrə müvafiq olaraq lazımi təkmilləşdirmə işlərinin planlaşdırılması, həyata keçirilməsi və davamlı təkmilləşdirmə üsullarının tətbiq edilməsi;

Fəaliyyətlərin qiymətləndirilməsi və növbəti fəaliyyətlərin keyfiyyətinin təmin edilməsi özünüqiymətləndirmə sisteminin formalaşdırılması kimi məqsədlərin təmin olunmasına söykənir.

Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor — dos. İdrak Əsgərov

Elm və innovasiya məsələləri üzrə prorektor — dos. Elvin Əliyev

Elmi katib — Allahşükür Quliyev

Keyfiyyət təminatı şöbəsinin müdiri — dos. Asif İmanlı